# İnsanlıq əleyhinə törədilmiş ən ağır cinayət



***Cənubi Qafqazın və ön Asiyanın qədim xalqlarından biri olan Azərbaycan xalqına qarşı XIX-XX əsrlər ərzində insanlıq əleyhinə ağır cinayətlər törədilmişdir. Ən azı 4 minillik dövlətçilik tarixi olan Azərbaycan xalqı dünya mədəniyyətinə, elminə, siyasi və hərb tarixinə elə əvəzsiz töhfələr vermişdir ki, bunlar heç nə ilə müqayisəyə gəlmir. Bu xalqın əcdadları müxtəlif dövrlərdə dövlətlər və imperiyalar yaratmış, hakim olduğu ərazilərdə dinindən, dilindən və etnik mənsubiyyətindən asılı olmayaraq yaşayan bütün xalq və millətlərə hörmətlə yanaşmışdır. Lakin XIX əsrin əvvəlindən başlayaraq onun ərazilərinə göz dikən çar Rusiyası bu torpaqları işğal etdikdən sonra antiinsani xislətə malik ermənilərdən alət kimi istifadə etmişdir. 1828-ci il mart ayının 21-də Novruz bayramı günü işğal etdiyi İrəvan və Naxçıvan xanlıqları ərazilərində qondarma "Erməni vilayəti" yaratmışdı. Bu cinayətkar addımı atan Rusiya çarı I Nikolay Azərbaycan xalqının bu torpaqların sahibi kimi legitimlik hüququnu pozmuşdur.***

Əslində belə bir cinayəti qardaşı I Aleksandr ondan əvvəl törətmişdi. Belə ki, əmri ilə 1804-cü ildə qədim Gəncə şəhəri işğal olunduqdan sonra əhalisinə divan tutulmuş, Cavad xan qətlə yetirilmiş və şəhərin adı dəyişdirilərək Yelizavetpol adlandırılmışdı. Bu hadisədən bir il sonra isə çar Rusiyası Qarabağ xanlığını özünə tabe etmiş, 1805-ci ildə "Kürəkçay müqaviləsi" imzalanmış və 1806-cı il may ayının 27-də İbrahimxəlil xan 32 nəfər ailə üzvü və xidmətçiləri ilə birlikdə çar ordusunun mayoru Lisaneviç tərəfindən qətlə yetirilmişdir. Qətlə yetirilənlər içərisində 12 yaşlı uşaq da var idi. Mahiyyət etibarilə bu soyqırımı cinayəti idi.

XX əsrdə ermənilərin əli ilə Azərbaycan xalqına qarşı miqyasını müəyyən etmək çox çətin olan cinayətlər törədilmişdir. 1918-ci il fevral ayının 23-dən başlayaraq Cənubi Azərbaycanda və martın 24-dən etibarən Şimali Azərbaycanda törədilən cinayətlər xüsusi amansızlığı ilə seçilir. Arxiv sənədlərindən məlum olur ki, 176 gün ərzində ABŞ, Fransa, Böyük Britaniya və Sovet Rusiyasının hərbi-siyasi yardımları ilə həyata keçirilən soyqırımları nəticəsində Cənubi Azərbaycanın şəhər və kəndlərində 160-200 nəfər azərbaycanlı cinayətlərin qurbanı olmuşdur. Şimali Azərbaycan ərazilərində ictimai-siyasi şəraitə gəldikdə isə burada vəziyyət başqa idi. 1917-ci ilin fevralında Rusiya imperiyasının dağılmasından sonra yaranan Müvəqqəti Hökumət həmin il martın 3-də Cənubi Qafqazın idarə olunması üzrə xüsusi komitənin - OZAKOM-un yaranması haqqında qərar qəbul etdi. 1917-ci il oktyabrın 26-da Rusiyada Avropa və ABŞ maliyyə maqnatlarının birbaşa yardımları ilə hərbi çevriliş nəticəsində Petroqradda hakimiyyət onların əlinə keçdi. Bu hərbi çevrilişi həyata keçirmək üçün L.Trotski və V.Lenin tərəfindən bolşeviklər partiyasına 102 milyon 290 min dollar vəsait ayrılmışdı. 1917-ci ilin noyabrında Sovet Rusiyası XKS-nin sədri V.İ.Leninin imzaladığı sənədlərə əsasən Polşa, Finlandiya və Pribaltika ölkələrinin dövlət müstəqilliyi tanınsa da, 1918-ci il mayın 28-də "İstiqlal Bəyannaməsi"ni elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyi tanınmadı. Bunun isə əsas səbəbi Bakı neftini əldən verməmək idi. Çünki bolşeviklər partiyasını maliyyələşdirən Avropa və ABŞ-ın kapital sahibləri Bakının neft sənayesində güclü mövqeyə malik idilər. Bu maliyyə kapitalı sahiblərinin yanında isə Bakı neftindən milyonlar qazanmış ermənilər - Qukasov, Montaşov, Lionozov, Mayılov, Ter-Avakov, Mirzoyev və "Daşnaksütyun" partiyasının liderləri dayanmışdılar. Buna görə də hakimiyyəti silahla ələ alan bolşeviklər çarizmin Şimali Azərbaycana qarşı yürütdüyü siyasətə daha sərt xarakter verərək daşnak xislətli kommunist ermənilərdən istifadə etdilər.

1917-ci il dekabrın 16-da RSFSR XKS-nin sədri V.İ.Leninin sərəncamı ilə S.G.Şaumyan Qafqazın Fövqəladə və səlahiyyətli komissarı təyin edildi və ona burada öz fəaliyyətini təşkil etmək üçün 500 000 rubl qızıl pul ayrıldı. O, Cənubi Qafqaza gələrək Bakıda bütün anti-Azərbaycan siyasi qüvvələrlə birləşib hakimiyyəti ələ keçirdi. Bolşevik-daşnak hakimiyyətini möhkəmləndirmək üçün 1918-ci il fevralın 13-də RSFSR XKS yeni qərar qəbul etdi. Qərara əsasən S.G.Şaumyanın sərəncamına 31,8 mln. rubl qızıl pul, 5 min tüfəng, 2 mln. patron, 35 pulemyot, 2 aeroplan, 2 zirehli maşın və döyüşçü dəstələri, o cümlədən Moskva Hərbi Dairəsinin 4-cü səyyar inqilabi dəstəsi göndərildi. Nəticədə Bakı şəhəri və onun ətrafında olan ərazilərdə yaşayan azərbaycanlı əhaliyə qarşı soyqırımı cinayəti törədilərək ən azı 12 mindən artıq azərbaycanlı məhv edildi. 1918-ci ilin martından 1921-ci ilin avqustun 1-dək isə bütün Cənubi və Şimali Azərbaycan ərazilərində 700 000-dən çox azərbaycanlı soyqırımı cinayətlərinin qurbanı oldu. Bu cinayətlərin hansı səbəbdən törədildiyini S.G.Şaumyan RSFSR XKS-nin sədri V.İ.Leninə 13 aprel 1918-ci il tarixində ünvanladığı məktubunda yazırdı: "Əgər onlar qəbula gəlsəydi, Bakı Azərbaycanın paytaxtı elan edilər və bütün qeyri-müsəlman ünsürlər tərk-silah və məhv edilərdi".



S.G.Şaumyanın I Dünya müharibəsi zamanı Osmanlı Türkiyəsinə qarşı vuruşan və 1917-ci il 5 oktyabr Ərzincan müqaviləsinə görə Qafqaz cəbhəsindən geri qayıdan daşnaklardan istifadə edərək azərbaycanlılara qarşı soyqırımı cinayətləri törətməsi və ən başlıcası, Bakı şəhərində hakimiyyəti ələ keçirməsi V.İ.Lenin tərəfindən çox böyük razılıqla qarşılandı. S.G.Şaumyanın Bakı Neft Komitəsinin sədri təyin etdiyi Saak Ter-Qabrielyan neftlə doldurulmuş 7 gəmi ilə əvvəlcə Həştərxana, sonra isə Moskvaya gedərək V.İ.Leninlə görüşdü. Görüş zamanı V.İ.Lenin S.G.Şaumyanın törətdiyi cinayətlərin miqyasından heyran qaldığını söyləyərək: Bakı proletariatına həm mənəvi, həm də maddi kömək göstərməyə hazır olduğunu bildirdi. 1918-ci ilin martından başlayaraq Rusiyada getdikcə alovlanan vətəndaş müharibəsində qələbə çalmaq və I Dünya müharibəsində çökmüş ölkə iqtisadiyyatını dirçəltmək üçün Sovet Rusiyasının rəhbəri V.İ.Lenin Bakı neftinin ələ keçirilməsi məsələsinə xüsusi əhəmiyyət verirdi. RSFSR XKS-nin 1918-ci il 22 may tarixli qərarı bu baxımdan diqqəti cəlb edir. Qəbul olunmuş qərarda deyilirdi: "...ən çox miqdarda neft yola salınması birinci növbədə və sözsüz təmin edilməlidir". 1918-ci il iyunun 5-də V.İ.Lenin Saak Ter-Qabrielyana vurduğu teleqramda S.G.Şaumyanın sərəncamına əlavə olaraq 50 milyon pul ayırdığını və "nefti birinci yerə qoymaq" tapşırığını verdi. Lakin bolşevik-daşnak hakimiyyətinin məhv olacağını görən V.İ.Lenin 1918-ci il iyunun əvvəlində Bakı Sovetinə vurduğu teleqramda yazırdı: "Əgər hücum baş tutarsa, mümkündürsə, siz Terə xəbər verəsiniz ki, o Bakını tam yandırmaq üçün tədbirlər görsün və bu barədə Bakı mətbuatında elan versin". Sonralar bolşeviklərin başçısının bu göstərişi ilə əlaqədar prof. E.Razin yazırdı: "Yalnız təsəvvür etmək olar ki, V.İ.Leninin bu göstərişi yerinə yetirilsə idi, neft layları üzərində duran şəhərin yandırılması yerli əhali üçün hansı bədbəxtliklərə gətirib çıxara bilərdi. Bakının mədənlərini yandırmaq əmrini yalnız və yalnız insanlıq hissini itirmiş cinayətkar verə bilərdi". Nəticədə Şimali Azərbaycan ərazilərində: Bakı quberniyasında 41 min, İrəvan quberniyasında 132 min, Zəngəzurda 10068 və Qarabağda 57 min nəfər erməni quldurları tərəfindən qətlə yetirildi. XX əsr ərzində, ilk növbədə 1918-ci ilin martından başlayaraq Azərbaycan xalqına qarşı törədilən soyqırımı cinayətlərinə siyasi-hüquqi qiymət Ulu Öndər, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev tərəfindən verilmişdir. Bu məsələlər ümummilli liderin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanında öz əksini tapmışdır.

**Cəbi BƏHRAMOV,**
**t.ü.f.d., dosent.**